**Platon və Platon Akademiyası**

A. **Platon`un həyatı**

Platon ([-428/7]-[-348/7]) Afinada kübar bir ailədə doğulmuş, yaxşı təhsil almış, musiqi və poeziya ilə, idmanla (güləşən olub) yaxından maraqlanmışdır. 20 yaşında Sokrateslə yaxından tanış olmaqla həyatının dəyişdiyi, şeir və incəsənəti rədd edib (yazdığı şeirləri yandırıb) özünü elm və fəlsəfəyə həsr etmişdi. Siyasi həyatda fəal rol oynamaq, heç olmazsa bir hökmdar tərbiyə etmək üçün bir neçə cəhdi boşa çıxmışdır. Sokrates öldürüldükdən sonra Afinanı tərk edib Meqara`ya Euklides`in yanına, sonra bir müddət Misirə getdiyi, orada riyaziyyat öyrəndiyi deyilir. Dörd il sonra yenidən Afina`da yaşamağa başlamışdır. "-387"-ci ildə Siciliya və İtaliyaya (Magna Graecia) səfər etmiş, Sirakuz hökmdarı 1-ci Dionisios`un sarayında yaşamış, lakin oradan geri göndərilmiş, Afina ilə savaşda olan Sparta tərəfdarlarına əsir düşmüş, kölə kimi satılmış, onu tanıyan biri tərəfindən azadlığa çıxarılmışdır.

Qədim Yunanıstanda Platon Akademiyası əslində Afinanın yaxınlığında (şimalda) yerləşən, idman və müxtəlif festivallar keçirilən bağın adı ilə bağlıdır. Əfsanəvi qəhrəman Akademus`un (və ya Hekademus adlı nüfuzlu bir şəxsin, vətəndaşın) adı ilə adlandırılan bu bağın bir tərəfində b.e.ə. 388 və ya 387-ci ildən başlayaraq Platon`un ətrafında cəm olmuş cəmiyyətdə riyaziyyat və fəlsəfi problemlər öyrədilirdi (2400 il əvvəl!). Pifaqor məktəbindən fərqli olaraq Akademiya hər kəsə açıq idi. Akademiya ərazi adı kimi Platon Akademiyasından xeyli əvvəl də vardı, orada gimnazium fəaliyyət göstərirdi. Platon öz Akademiyasının adını ilk dəfə "Menon" dialoqunda çəkir. "-366"-cı ildə Platon yenidən Magna Graecia`ya, 2-ci Dionisios`un sarayına getmiş, siyasi oyunlar nəticəsində hökmdara müxalif duruma düşərək oranı tərk etməli olmuşdu. "-361"-ci ildə artıq 3-cü dəfə Dionisios sarayına getmiş, bu dəfə daha da ağır vəziyyətə düşmüş, yaxınlıqdakı Tarento hökmdarı riyaziyyatçı və filosof Arxitas`ın köməyilə canını qurtara bilmişdir.

Əslində Akademiyada dərs deyilmir və ya dərs üsulu, yəqin ki, az yer tuturdu, əsas üsul ortaya məsələ, problem qoyub onu həll etməyə çalışmaq və dialoq idi (Sokrat metodu); hər halda riyaziyyat kimi dərslərin daha standart üsulla deyildiyi də şübhə doğurmamalıdır. Platonun əsərlərinin dialoq şəkli ("Sokrates`in Apologiyası" istisnadır), görünür ki, onun yazıçılıq istedadı ilə yanaşı (hər dialoq öz ideyası və dramatizmi, maraqlı və güclü şəxsiyyətləri, ibrətamiz rəvayətləri ilə yadda qalır), həm də

Akademiyadakı müzakirələrlə bağlıdır.Yəqin ki, şifahi danışıqdan yazıya keçmək üçün də dialoq daha maraqlı görünürdü (Sokrates dialoq aparır, amma yazmırdı)...

Akademiyada məşğələlər məşq xarakteri daşıyırdı, ruhi çalışmalar əsas yer tuturdu. Bu, açıq havada və örtülü yerdə baş verə bilirdi. Akademiya üzvlərinə akademiklər deyirdilər. Platon buradakı intellektual fəaliyyəti tənzimləyir və ilhamlandırırdı (40 ilə yaxın Akademiyada, yəqin ki, 5-7 il də ondan əvvəl!?).

Platonun əsərləri küllisi onun bir çox müasirlərindən fərqli olaraq zamanımıza gəlib çatmışdır. Bunu Platonun böyüklüyü ilə yanaşı, bəlkə ondan da çox, Platon Akademiyası`nın fəaliyyəti ilə bağlamaq mümkündür. Eyni fikir Aristoteles`in əsərləri və onun Liseum`una da aiddir.

Platon filosofdur və filosof olduğu qədər də usta yazıçıdır, şairanə dili olan filosof-yazıçıdır. Zaman keçdikcə, yaşa dolduqca Platonun üslubu daha nəzəri, daha dəqiq və quru olmuşdur. O, əsərlərinə bir daha nəzər salmış, fikirlərini dəqiqlışdirmiş və müəyyən dərəcədə dəyişmişdir. “Sokratesin müdafiəsi”, “Protaqoras”, “Dövlət”in birinci hissəsi kimi əsərlər gənclik dövrünün, “Qorqias”, “Menon”, “Ziyafət/Simpozium”,  “Faidon” və “Dövlət”in (və ya başqa deyilişdə “Respublika”; yunanca:Πολιτεία/Politeia) kimilər yetkin çağında, “Parmenides”, “Timaios”, “Qanunlar” kimi əsərləri isə sonda, yaşlı dövründə yazılmışdır.

Platon fəlsəfənin, demək olar ki, bütün sahələrinə toxunmuş, özündən əvvəlki filosofların ideyaları üzərində düşünmüş, sistemli nəzəriyyələr yaratmışdır. Adı Aristokles olan, ancaq enlikürəkli (geniş omuzlu) və ya geniş alınlı olduğuna görə “geniş” (πλατύς/platis) mənası verən Platon ləqəbini almış (guya ona bu ləqəbi güləş müəllimi veribmiş) bu filosof fəlsəfəni əhatə etmək baxımından da (xüsusilə) ən geniş və dərin bir mütəfəkkirdir (Ad haqqında bu məlumat xeyli sonralar meydana çıxdığı üçün əsl adın Platon olduğunu müdafiə edənlər də var; Platon yunanlarda yayılmış bir ad imiş). A.N. Whitehead`ə görə “The safest general characterization of the European philosophical tradition is that it consists of a series of footnotes to Plato” (“Avropa fəlsəfi ənənəsinin ən etibarlı ümumi səciyyəsi onun Platona haşiyələr  silsiləsindən ibarət olmasıdır”) (Alfred North Whitehead. Process and Reality. N.Y. Free Press, 1979; p. 39). B. Russell isə “Həmişə Platonu tərifləmək düzgün hesab olunub, onu başa düşmək deyil” deyir (B. Russell, s.113). O, başa düşmək (Platonun bəzi əsərləri çətin başa düşüləndir) baxımından haqlı göründüyü halda, Platonun tənqidlərə məruz

qaldığını unutmuş kimi görünür; xüsusi halda Sovet marksist fəlsəfəsi Platonu və onun carçısı olduğu idealizmi amansızcasına tənqid etmişlər. Platon kainat haqqında fikirlərində daha çox, yəqin ki, Pifaqor və Empedokl`dan, əxlaq nəzəriyyəsində Sokrat`dan, riyazi görüşlərində Pifaqordan, metafizika və dialektikada Heraklit və Parmeniddən bəhrələnmişdi (?!).

### B. Platonun idealizmi/ideyalar nəzəriyyəsi

Platon maddi dünyanın ikinci dərəcəli olduğunu, gerçəkliyi əks etdirmədiyini, ideyaların isə əsas mövcudiyyət olduğunu, hər şeyi müəyyən etdiyini irəli sürən idealizmin carçısıdır. Platon materiallar aləmini deyil, ideyalar aləmini gerçək sayırdı. Əsas varlıq ruh və ruhun yüksək pilləsi olan ağıldır. Bədən insanın təbiətini əks etdirmir, bədən ölür, ruh isə ölümsüzdür.

Herakleitos`un "sabit heç nə yoxdur, deməli varlıq da yoxdur" fikrinə qarşı Sokrates əxlaqi və mənəvi dəyərləri maddi olmayan bir mövcudiyyət, varlıq kimi təqdim etdi (ədalət, cəsarət, dindar kimi ümumi ideyalar var). Platon bu baxışı genişləndirib ümumiləşdirdi. O, estetik dəyərləri (gözəllik, yaxşılıq,..ideyaları), həmçinin elmi anlayışları, birinci növbədə də riyaziyyatı əsl həqiqi varlıq kimi ortaya qoymuş, riyaziyyatçının düşüncəsində olan həndəsi fiqur və ədədlərin sabit, dəyişməz və maddi olmayan gerçək olduğunu irəli sürmüşdür. Gündəlik həyatda rast gəlinən maddi həndəsi fiqurlar (dairəvi təkər,...) gerçək varlıq deyillər, onlar əsl riyazi (mücərrəd) fiqurların surətidir (təhrif olunmuş). Çoxluğu təmsil edən hər şeyin, hər adın (insan, daş, çiçək) ideyası (tək bir ideyası!) var (insan ideyası, çiçək ideyası). Bu ideya birləşdiricidir. İdeyalar qeyri-maddi, dəyişməz (əbədi) və hərəkətsizdir, insandan (və hər hansı fövqəlbəşər gücdən) asılı olmadan mövcuddurlar, onlar insan tərəfindən kəşf edilə bilərlər. Riyaziyyatçının əsas işi, ideyaları həndəsi fiqurlar və ədədlərdir (mücərrəd dairə, mücərrəd düzbucaqlı üçbucaq, tək ədədlər,...).Riyaziyyatçının taxta üzərində çızdığı həndəsi fiqur (çevrə, üçbucaq) ümumiyyətlə çevrənin, üçbucağın, ideyanın surətidir... Platon ideal axtarışında riyaziyyata müraciət etdi!

Platon ağılla duyğunu bir-birindən fərqləndirməyə deyil, ayırmağa girişdi!? Sokrates anlamaq üçün, anlayışların mahiyyətinə varmaq üçün ümumi olana müraciət edirdi, Platon ümumini daha da qabartdı və bunu xüsusinin hesabına etdi. İdeyalar əsl, duyğu üzvlərimizlə qəbul etdiklərimiz (gördüklərimiz,...) fərdi varlıqlar isə onların təhrif olunmuş surəti, kölgələridir. Bir fərd ölümlüdür, insanlıq isə əbədidir; insanlıq əsl, fərd isə

onun surətidir, var olan insanlıqdır (ideyadır, formadır). Görünən şeylər yox olacaq, görünməyənlər əbədidir (o cümlədən, bədən müvəqqəti, ruh əbədidir). Ümumi ad ümumi ideyadır, onu Tanrı yaradıb.

> əslində isə bizim gördüklərimiz yalnız konkret olanlar-fərdlər, əşyalar, xüsusi adlar deyilmi!?

Duyğularla qəbul etdiyimiz hər şey (məsələn, bir şəxsin gözəlliyi) dəyişir, hətta yox olur, gözəllik (ideya) isə əbədi və dəyişməzdir. Duyğu üzvlərinin qəbul etdiyi rəydir, görüntüdür, əsl olanı, yəni biliyi isə ancaq ağıl vasitəsilə əldə etmək mümkündür (mümkün olsa!). Platon xüsusini ümumiyə qurban verir –belə demək mümkündür.

Platonun məşhur "Mağara" misalı-əfsanəsini yada salaq ("Dövlət"). Mağarada əli, qolu, ayağı bərk zincirlənmiş, geriyə və yana heç cür qanrıla bilməyən, bir-birini də heç görə bilməyən, yalnız öz qabağındakı divarı görən insanları (mənbusları deyə bilərik) təsəvvür edək. Onların başqa bir dünyadan xəbərləri yoxdur. Mağaraya giriş uzundur və  gündüz işığı mağaranın içinə çatmır. Bu insanların arxasında –mağaranın ağzından bir qədər aralıda hündür bir yerdə gur ocaq alovlanmaqdadır. Bu ocaqla insanların arasından (insanların arxasından) keçən yolla başında müxtəlif əşyalar daşıyan bir dəstə adam addımlayır. Mağaradakı insanlar öz qarşılarındakı divarda nə görürlər? Ancaq ocağın işığının əmələ gətirdiyi kölgələri - arxadakı yolla hərəkət edənlərin kölgələrini. Addımlayan adamların səsi məhbusların qulağına qarşıdakı-gördükləri divardan əks-səda olaraq çatır. Ömür boyu ancaq bu kölgələri görməyə və bu əks-sədanı eşitməyə alışmış mağara sakinləri gözləri ilə gördüklərini-kölgələri, təbii ki, gerçək şey, əks-sədanı da gerçək səs hesab edirlər. Əslində isə onlar gerçək varlıqları deyil, ancaq gerçək varlıqların – yolla gedən adamların təhrif olunmuş əksini-kölgələri görürlər. Əgər bu məhbuslardan biri zəncirdən azad olsa, geriyə dönüb baxsa, alovdan gözləri qamaşacaq və ağrıyacaq, özünü itirəcək, heç nə başa düşməyəcək, əvvəlki-alışdığı-anladığı vəziyyətə qayıtmaq istəyəcək. Onu bayıra çıxarsalar, işıqdan gözü tutulacaq, yenə heç nə başa düşməyəcək. Uzun müddət Yer üzündə qalsa, ona yad olan bu dünyanı müəyyən dərəcədə anlasa və mağaraya qayıtsa (ilk əvvəl qaranlıqda gözü tutulacaq), o, vəziyyəti heç dəyişməmiş məhbuslara nə danışacaq? Yer üzündə gördüklərini...və məhbuslardan heç kim onu başa düşməyəcək, məhbuslar görüntü olaraq ancaq kölgələri və səs olaraq əks-sədanı qəbul edirlər. Beləliklə, insanların başına gələnlər, onların təcrübəsi əsl, yəni gerçək deyil, onların düşündükləri, anladıqlarıdır.

Platon Pifaqorçu idi. Yaradıcılığının son dövründə ədədlərin hər şeyin kökündə dayanması, hətta hər şeyin ədədlərdən ibarət olması görüşü özünü göstərmişdi. Platon Pifaqorçuların hər şey ədəddir və ya fiziki əşyalar ədədlərin "təqlid"idir kimi fikirlərini fiziki əşyalar ədədlərdən "pay almışdır" kimi özününküləşdirmişdi.

### c. Yaradıcı Demiorqos (Tanrı!?) və Kainat

İdeyalar və kainatı (İdeyalara baxıb) yaradan ağıllı sənətkar, memar, usta (Demiurq/Demiorqos) həmişə var olmuşlar, duyğularla dərk edilən "yaradılmış şeylər arasında onların ən gözəli" olan Kainat, göründüyü kimi, əbədi deyil, bir zaman yaradılmışdır. Demiorqos, yəni Tanrı xeyrxahdır.

> insan bunu necə bilir? xeyrxahlığı kim müəyyən edir? insanlar xoşlarına gələni və ya faydalı olanı xeyir/yaxşı saymırlarmı?! elmi həqiqəti isə, xoşa gəlinməsə də, qəbul etməli olurlar, çünki ortada təcrübə və nəzəri sübut var.

Demiorqos kainata ağıl və ruh vermişdir (əvvəl ruhu yaratmış, ona ağıl vermiş, sonra bədəni yaratmış, bədənə ruh vermişdir). Tək bir dünya var (Kainat vahid və əbədidir!), Demiorqos "bütün canlı varlıqları içinə alan gözlə görünən tək bir canlı varlıq yaratmışdır". Bu halda Platon, deyəsən, yunan ənənəsinə uyğun olaraq, kainatın bir (həmişə var olan) xaosdan nizamlı hala gəlməsini nəzərdə tutur, Demiurq qaydasız, qarışıq dünyanı nizama salır (yəni heçdən yaratmır). Kainat müəyyən nisbətdə götürülmüş 4 ünsürdən yaradılmışdır (bu fikir Platon`da dumanlıdır, 4 element heç də ilk, başlanğıc elementlər deyillər!? Bax: Platon və riyaziyyat). Kainat mərkəzində Yer dayanan kürə (ən mükəmməl fiqur) şəklindədir, sonludur. Kainat hərəkət edir, bu, öz oxu ətrafında müntəzəm fırlanmaqdan ibarətdir. Beləliklə, Platon öz tələbəsi Aristoteldən fərqli olaraq kainatı tərkib və xassə etibarilə iki fərqli hissəyə ayırmır; o, sadəcə, səma cisimlərinin oddan yaradılmış olduğunu deyir. Göylər və zaman eyni vaxtda yaradılmış, Günəşin yaradılması gecə və gündüzün əmələ gəlməsi və növbələşməsinə gətirib çıxarmış, bu isə saylara (hesaba) və son nəticədə fəlsəfənin yaranmasına səbəb olmuşdur.

Planetlər sferalara bərkidilib və bu sferalar öz planetləri ilə eyni rəngdədir. Sferalar arasındakı məsafə bir oktavadır, hər sfera üzərində bir sirena əyləşib və o "öz" musiqisini, öz havasını çalır. Ay ən sürətlə, Günəş, Venera və Merkuri eyni sürətlə fırlanırlar (digər planetlər müxtəlif sürətlə, Yerdən uzaq olduqca daha yavaş sürətlə dövr edirlər), amma Venera və Merkuri Günəşin tərsi istiqamətində fırlanırlar və bu səbəbdən də ona çatır və onu

ötürlər (“Timaeus”). Bütün səma cisimləri (onların ruhu var) müntəzəm dairəvi hərəkət edirlər. Onların Yerdən olan məsafəyə görə düzülüşü belədir (yaxından uzağa): Ay, Günəş, Venera/Afrodita, Merkuri/Hermes, Mars/Ares, Yupiter/Zevs, Saturn/Kronos və ulduzlar sferası (“Dövlət”, sonuncu fəsil; yunan adlarına sonrakı Roma adlarını əlavə etmişik – H.İ.). Şəkil. Platonda planetlər Babillərdə olan adların tərcüməsidir, yəni uyğun allahların adını daşıyırlar.

Demiorqos əvvəlcə insanın başını (ağlın yeri olduğu üçün yuxarıdadır və kürəşəkillidir!), sonra gövdə, əl, qol və ayaqlarını, sonda üzündəki duyğu orqanlarını yaratmışdır. Qeyd edək ki, Platon da Empedokles kimi görməni gözdən çıxan şüaların baxılan obyektə çatması ilə izah edirdi (Platon: Timaios)

Platon`un din anlayışı dövlətin nəzarət etməli olduğu cəmiyyətin inancı ilə bağlıdır. Dinsizlik dövlətə qarşı günah, xəyanət kimi qiymətləndirilməlidir. Tanrılar var, xeyrxah və ədalətlidirlər – doğru inanc budur, vətəndaş bunu tam qəbul etməlidir. Fizik filosoflar hər şeyin əsasında təməl maddə və ya maddələr qoyduqları üçün tanrılara xüsusi yer və rol qalmır. Sofistlər əxlaqı təbii olmayan, süni bir şey kimi şərh etdiklərinə görə mənəviyyat aləmində tanrılara yer saxlamamışlr. Bu qədər bir-birinə uymuş hissələrdən ibarət olan, nizamı, agəngi olan Kainat bir təsadüfün nəticəsi ola bilməz, burada ağıllı bir fövqəlgüc işə qarışıb, gözəl bir əsər ortaya qoyub (teleoloji sübut; filosoflar kosmoloji və ontoloji sübutlar da irəli sürmüşlər). Hərəkət hər şeyin təməlində dayanır, hər cür hərəkət ruha aiddir, deməli ruh maddi olandan əvvəldir. Pis ruhlar da var (ruh ağılsızlıqla birləşə bilir). Lakin bütövlükdə kainata xas olan mükəmməllik yaxşı/xeyir ruhla (ən yüksək ruhla-Tanrı ilə) bağlıdır. Platon təktanrıçı deyil, amma ən mükəmməl ruhun sahibi olan bir Tanrıdan da bəhs edir. Bəs ədalətsiz görünənlər nədir, niyə onlar mövcuddur (Tanrı xeyrxahdırsa)? Platon bütün olanın öz bəzi hissələrində fərqli görünə biləcəyini iddia edir, yəni ayrılıqda yaxşı görünməyən şey fərdi duyğudur, bütün isə yaxşıdır (yağış bəzi yerlərə və insanlara zərər vura bilər, bütövlükdə isə yağış zəruridir, yaxşıdır).

### D. **Bilgi və ruh**

Platon bilginin tərifi üzərində düşünərkən bilginin həmişə var olan, insandan daha uzunömürlü təbiətə malik olmasına çalışmalıydı (Heraklitos`un hər şey dəyişir və sabit heç nə yoxdur fikrinə qarşı). Bilgi ruh və ya ağılda üstüörtülü, gizli mövcud olan şeylərin xatırlanmasıdır. Bilgi insanda (ruhunda) var olan, ancaq bilincində, şüurunda olmayan bilginin

xatırlanmasıdır. Ruh ölümsüzdür və yenidən doğulur (dəfələrlə). Sokrates ruhun ölümsüzlüyü məsələsinin və ümumiyyətlə, ruhun təbiətini anlamağın çox çətin olduğunu qeyd edir – “Phaidon”. Başqa sözlə desək, insan bilmədiyi sandığı şeyləri əslində bilir, yəni insan doğulanda onda bilgi var və öyrənmə bu bilginin xatırlanmasıdır.

Platon əvvəlki “bədən ruh üçün zindandır” fikrini sonralar xeyli yumşaltmışdı, bədəni müəyyən dərəcədə ruhun tabeçiliyinə vermişdi (Timaios). Bədənin ölməsi ruhu azad edir (Faidros). İlahi varlıqlar olan səma cisimlərinin, kainatın özünün də ruhu və ağlı var (sonuncuya “aləm ruhu” deyir). Platon “Timaios” dialoqunda daha bir qəribə fikir irəli sürür (bu dialoqda nəyin ciddi, nəyin rəvayət olduğu yaxşı aydın olmur): insanın iki ruhu var, biri ölməzdir və insanın başında yerləşir, digəri ölümlüdür və sinədə (ürəkdə?) yer alır.

Platon eşqi, bu ilahi və ya mistik həyəcanı sevilənin üstün və xoşbəxt olması, sevənin isə yoxsul, qeyri-xoşbəxt, o üstün və xoşbəxt olana qovuşmaq, yoxsulluğu atıb zənginliyə qovuşmaq istəyi, gözəlliyə çatmaq arzusu ilə tərif və izah edir.Yəni eşq gözəl olanı əldə etmək və ya yaratmaq və bu yolla xoşbəxt olmaq arzusudur. Eşq ölümsüzlük istəyidir, uşağın doğulması ata və ana ömrünün uşağın timsalında uzanmasıdır, davam etməsidir. Bilik sevgisi, elmdəki möcüzəli gözəlliyə qovuşmaq bəlkə daha güclü eşqdir; bu, ölümsüzlük gətirə bilir (Platon: “Simpozium”/Ziyafət).

Platon Sokrates`in dili ilə belə bir fikir irəli sürür: əsl biliyə qovuşmaq üçün ağıl bədəndən ayrılmalıdır, bədən öz istəkləri ilə mane olur (“Fedon”). Deməli əsl biliyə ancaq öləndən sonra çatmaq mümkündür. Bu, həmçinin təmizlənmə, saflaşmadır. Əsl filosofun ruhu ölümdən sonra azad olub gözəgörünməz dünyaya, tanrıların yanına yollanır. Digər insanların ruhları heyvanların bədəninə daxil olur (yaxşı ruhlar yaxşı heyvanların-arı, qarışqa kimi, pis ruhlar canavar, eşşək kimi heyvanların bədəninə daxil olurlar). Platon ruhları ölümdən sonra fərqli yerlərə də göndərir, uyğun olaraq göylərə, təmizləyici yerə və cəhənnəmə (“Fedon”). Tənbəl və pis kişilərin ruhu qadınlara, astronomiyanı riyaziyyatsız öyrənməyə çalışanların ruhu quşlara, fəlsəfədən uzaq düşənlərin ruhları yer üzərindəki vəhşi heyvanlara, ən səfehlərin ruhu balıqlara keçəcək (“Timaeus”).

## E. Platon`un siyasət fəlsəfəsi və ya ideal dövləti/utopiyası

Platon böyük, nəhəng siyasət filosofudur. Pelopennes savaşının, cəmiyyətdəki qarşıdurmaların, sofist təliminin nəticəsində “dövlət siyasəti necə olmalı”, “hökmdar necə olmalı” kimi suallar Platonu hərtərəfli bir

siyasət fəlfəfəsi və onun nəticəsi ola bilən ideal dövlət nəzəriyyəsi üzərində düşündürürdü, bu iş əslində onun həyat məsələsinə çevrilmişdi. "Platon`un öz Akademiyasını qurmasının mühüm bir səbəbi məhz onun siyasət adamları yetişdirmək proqramı ilə bağlı idi.

Tək siyasi deyil, bir çox fəlsəfi (o cümlədən əxlaqa aid) problemlərin yer tutduğu "Dövlət" əsərində, eləcə də sonra gələn "Dövlət adamı" və fikirlərini yenidən təftiş edib nizama saldığı "Qanunlar"da öz siyasət fəlsəfəsini sistemli şəkildə inkişaf etdirmişdir. "Timaeus" adlı qarışıq və mürəkkəb dialoqunda "Dövlət" əsərinin bir hissəsinin xülasəsini verir.

Platon öz siyasət fəlsəfəsində açıq-aşkar şəkildə Sparta`nın dövlət sistemindən ilham almışdı. Ümumiyyətlə, yunanların çoxu Sparta`nı qayda-qanunu yerində olan, sabit, əski zamanların dəyərlərini qoruyub saxlayan dövlət-şəhər kimi görürdülər. Vətəndaşlarının əsas məşğuliyyəti savaş sayılan Sparta aşağı-təhkimli təbəqəni (ilotları) istismar edir, bəzən cismani cəhətdən məhvə qədər hərəkət edə bilirdi. Qızıl-gümüş qadağan olunmuşdu, dəmir puldan istifadə olunurdu. Sparta idarəetmə sistemi demokratik ünsürlərlə tamamlanmış dörd pilləli aristokratlıqdan ibarətdi (1. müxtəlif nəsillərə mənsub olan iki hökmdar; 2. kübarlardan ömürboyu seçilmiş Ağsaqqallar Şurası –hökmdarlarla birlikdə 30 nəfərlik; 3. Xalq Toplantısı (bütün vətəndaşların iştirakı!) – qanunlara səs vermə; və nəhayət, 4. hökmdarlara nəzarət edən çağdaş konstitusiya məhkəməsinə bənzər 5 nəfərlik qurum-eforlar vardı). Evlənmə və ailə, uşaqların tərbiyəsi, dövlətin idarəedilməsi kimi məsələlərdə Platon Sparta misalından bəhrələnmişdi. Spartada uşaq və gənclərin tərbiyəsi və xüsusi məktəblərdə təhsili əsasən sağlam savaşçı yetişdirməkdən ibarət idi. Qız-qadınların vəziyyəti və hüquqları da oğlan və kişilərə bənzəyir, digər yunan şəhər-dövlətlərindən kəskin dərəcədə fərqlənirdi. Plutarx da Spartanı tərənnüm edir, onun kommuna tipli ümumyaşayış qaydalarını təsvir edirdi. Aristotel ("Politika") Sparta`ya düşmən münasibətdə idi, Sparta`nın böyük qüsurlarından, görünəndən qat-qat pis olduğundan (qadınlara çox hüquq verildiyindən?!) bəhs edirdi.

Platon`a görə ("Dövlət") dövlət əməyin ictimai bölgüsünə, ixtisaslaşmağa ehtiyacdan yaranıb. İlk cəmiyyətlər pozulmamışdı, qanunlar və dövlət yoxdu. Amma get-gedə insanların istəkləri artmış, ixtisaslaşma da artmış, anlaşılmazlıqlar, narazılıqlar artmış, savaşlar başlamışdı. Savaşanlara, idarəedənlərə ehtiyac artmışdı. Cəmiyyətə kənardan dan hücum təhlükəsi olduğuna görə qorunmaq da həyati vacib işə çevrilir. Demokratiya çoxluğun ağılsızlığıdır, ata uşaqlarından, müəllim şagirdlərdən, kişilər qadınlardan

qorxurlar (Platon`un sevimli müəllimi Sokrates`i demokratiya öldürmüşdü). Tək demokratiya deyil, tiraniya, eləcə də zənginlərin və ya hərbçilərin hakimiyyətinə əsaslanan dövlət tipləri insanların təbii bərabərsizliklərinə əsaslanmadığı üçün təbii deyillər.

İdeal dövlət üç zümrədən ibarət olmalıdır: filosoflar idarə etməli, hərbçilər qorumalı, sənətkarlar və əkinçilər maddi nemətlər yaratmalıdırlar. Bu halda hərə öz işi ilə məşğul olub başqasının işinə qarışmır – bu, ədalət deməkdir (?!). Tanrı idarəedənlərin ruhunu qızıldan, hərbçilərinkini gümüşdən, sənətkarlar və əkinçilərinkini isə mis və dəmirdən düzəltmişdir – insanlara bunu daim aşılamaq lazımdır, onlar əvvəl-axı buna inanacaqlar. Platon ideal dövlətdə qızıl və gümüşün işlənməsini qadağan edir. Filosoflara hörmət edilməməsini Platon cəmiyyətin müdrik olmamasında görür (Sokrates`in dili ilə "Dövlət"də).

Bu dövlət incəsənət və ədəbiyyatı təftiş etməli, pedaqoji cəhətdən ziyanlı olanları qadağan etməli, öz incəsənətini yaratmalıdır. Uşaqlara bədən təlimi və ruh təhsili (ədəbiyyat, musiqi və incəsənət – yəni geniş mənada mədəniyyət) verilməlidir. Musiqi cəsurluğa səsləyən olmalıdır. İdarəedənlərin təhsilində isə riyaziyyat və fəlsəfə əsas yer tutmalıdır. Tanrılar və qəhrəmanları zəif və qüsurlu göstərmək olmaz. Bu baxımdan hamını, bütün şairləri, o cümlədən Homeri təftiş etmək, senzuradan keçirmək və ya qadağan etmək lazım gəlir; uşağın tərbiyəsini pozan, onda qorxu hissi yaradan və ya onu sentimental edən hər şey yaramazdır, hər şeydə ölçünü gözləmək lazımdır. "Dövlətimizə Homer muza`sını buraxsaq, qanun və loqos əvəzinə həzz və əzab meydan alar". Aristokratları aşağılayan əsərləri oxumaq və ya tamaşaya qoymaq olmaz. İdarəedənlər/filosoflar və hərbçilər üçün özəl mülkiyyət yoxdur, özəl mülkiyyət həsəd və düşmənçilik hissi yaradır. Onlar bir yerdə yaşamalı, bir yerdə yeməlidirlər. Maddi nemət yaradanların mülkiyyəti ola bilər, amma onların həddindən çox zənginləşməsinə və yoxsullaşmasına yol vermək olmaz. Bəzi fikirlərin təkcə idarəedənlərə, yoxsa hərbşilərədəmi aid olduğu qaranlıq qalır.

Ailənin təşkili də (gərək ki, idarəedənlərdə; hərbçilərdə bir sıra məsələlər aydın deyil) daxil olmaqla hər şey dövlətin əlində olmalıdır. Kişi-qadın əlaqələri də tənzim olunmalıdır - yaxşılar yaxşılarla, zəiflər zəiflərlə (hökumətin tövsiyəsinə etiraz etmək olmaz). İdarəedən kişi və qadınlar ailə qurmamalıdırlar, qadınlar bir kişiyə məxsus ola bilməzlər. Qızlar da oğlanlar kimi tərbiyə olunmalıdırlar. Qadınlar idarəetmədə kişilərlə eyni hüquqa malikdir, qadınlar idarəedən də, hərbçi də ola bilərlər. Valideyn uşağını,

uşaq valideynini tanımamalıdır. Özəl mülkiyyət kimi özəl ailə də insanlar arasında qısqanclıq hissi və hirsi yaradır, cəmiyyəti parçalayır. Uşaqlar ümumidir. Dövlət vətəndaşların tərbiyəsi ilə məşğul olmalıdır, uşaqlar xüsusi təhsil-tərbiyə sistemi ilə yetişdirilir, istedadından asılı olaraq uşaq bir zümrədən digərinə (aşağı və ya yuxarı) keçirilə bilər. Zəif doğulmuş uşaqlar cəmiyyətə lazım deyil (gizlədilsin, yox edilsin). Qadınlar 20-40, kişilər 25-55 yaş arasında evlənəndə qanuni sayılır, uşaqları ola bilər. Əks halda onlar azaddırlar, amma uşaq olmamalıdır.

Platon sonra yazdığı "Qanunlar" əsərində bu "mükəmməl dövlət nümunəsini", ideal dövlət utopiyasının mütləqliyini xeyli yumşaltmışdı. Məsələn, mülkiyyət və qadın ortaqlığını aradan qaldırmış, mülkiyyətin istifadə üçün xalqa paylanmasını, filosof olmayan dövlət başçısının filosof müşavirə ehtiyacını irəli sürmüş, yaxşı dövləti səciyyələndirən kəmiyyət analizləri aparmış, çoxsaylı bürokratik işlərin təsvirini və təsnifatını verməyə çalışmış, sənət adamlarına qarşı senzuranı tövsiyələrlə əvəzləməyi mümkün saymışdı. Insanlar ilk cəmiyyəti əmələ gətirmələrində tək ehtiyac deyil, insanların bir-birinə olan sevgisi də rol oynamışdı (xüsusilə sayları az olanda). Xüsusi mülkiyyət və sərbəst ailə siyasəti, siyasi hüquqların zümrə üzrə deyil, əmlakın dəyərinə uyğunlaşdırılması, əkinçiliyin qullara aid edilməsi, fərqli-qarışıq siyasi quruluşların mümkünlüyü qeyd və qəbul edilmişdi. Platon ədədlərə sevgisini ideal dövlətdə/şəhərdə əhalinin sayı 5040 (=1·2·3·4·5·6·7) olmalıdır deyə bildirmişdi ("Qanunlar").

Platon öz ideal dövlətinin bir utopiya olduğunu anlasa da, keçmişdə və ya gələcəkdə "gerçək filosoflar dövlət başına gəlmişlərsə və ya gələcəklərsə", "belə bir şeyin olması imkansız deyildir". İdarəedən filosof çox ciddi təhsil almış, sağlam bədən və sağlam ruha sahib, ağıl, xarakter və əxlaq cəhətdən yüksək olmalıdır.

> Platonun ideal dövləti Sovet İttifaqındakı vəziyyətdən qat-qat çox mərkəzçi olmaqla, faşist elementləri olan bir quruluşa daha çox bənzəyir.

İdeal olmayan, yəni nöqsanlı, qüsurlu dövlətlər dörd növdür (yaxşıdan pisə doğru): şərəf dövləti, zənginlik dövləti (oliqarxlıq və ya plutokratlıq), xalq dövləti (demokratlıq) və zorbalıq dövləti (tiranlıq).

Şərəf dövləti savaşa, ruh deyil, bədən tərbiyəsinə, şan-şöhrətə önəm verən dövlətdir, aristokratik dövlətin bir qədər pozulmuş şəklidir. İdarəedən siniflə çalışanlar arasındakı ziddiyyətlər (çalışanlar üsyan edər, idarəedənlər üsyanı yatırdar), idarəedənlərin çalışanların hesabına zənginləşməsi nəticəsində

şərəf dövləti zənginlik dövlətinə çevrilər. Böyük sərvətə sahib kiçik azlığın dövlətində "doğruluğun və doğru insanların şərəfi azalır". Bu dövlətdə əksəriyyət çox yoxsuldur, dilənçi kökündədir. Bu əksəriyyətin zənginlərə nifrəti inqilabla nəticələnəcək və xalq dövləti qurulacaq. Hər kəs azaddır, nə istəsə danışır, qabiliyyəti olmayan da dövlət işinə girə bilir, filosoflar dövlət işindən kənarda qalırlar, qarşıda fəlakətlər durur. Bu başsız azadlıq, hərc-mərclik, əxlaqın pozulması böyük nizamsızlığa, xaosa səbəb olur. Bir tiran meydana çıxıb "xalqımı xilas edəcəm" deyir, etibar qazanır, silahlı güc əldə edir (xalqı qorumaq üçün), xoşuna gəlməyən hər kəsin axırına çıxır, zorbalıq dövləti yaranır.

Qanunlar cəmiyyətdəki dəyişmələri özündə əks etdirə bilmir, ona görə başçı-filosofun qanunları hər zaman dəyişdirmək haqqı olmalıdır. Lakin hakimiyyət başında hər zaman yanılmaz filosof olmur (olsa, ideal olardı), bu səbəbdən yazılı qanunlara əsaslanmaq lazım gəlir. Ümumiyyətlə, qanunlara əsaslanan pis hökumət belə qanunlara əsaslanmayan hər hansı hökumətdən daha yaxşıdır. Məsələn, bir başçı dövləti qanunlar əsasında idarə edirsə (monarxiya), bu, tək adamın qanunsuz idarə sistemindən (tiranlıq) yaxşıdır; eynilə, azlığın qanunlarla idarə etdiyi aristokratlıq sistemi azlığın qanunlarsız idarəetdiyi oliqarx sistemindən yaxşıdır. Qanunlara uymayan rejimlərin içində yaxşısı (nisbətən) demokratik olandır ("Dövlət adamı"). Əsl müdrikləri tapmaq və hakimiyyəti onlara vermək praktik olaraq mümkün deyil, B. Russell bunu demokratiyanın digər quruluşlardan üstün olduğunun sübutu olaraq qəbul edir (səh. 115).

Platonun fərd cəmiyyətin üzvi parçasıdır deməsi, insanın öz hissələrinin üzvi birləşməsindən ibarət olması kimi bənzərliyə baş vurması mühafizəkar və hətta təhlükəli görünür. Əslində fərd cəmiyyətin tam üzvi parçası deyil, fərdin öz dünyası, düşüncələri, hətta var olduğu cəmiyyətdən başqa, fərqli cəmiyyətə keçmək imkanı və hüququ var...

> Platondan sonra ideal dövlət haqqında çoxsaylı utopik əsərlər yazılmış, proqramlar irəli sürülmüşdür. Bu maraqlı görünsə də, ədəbiyyata göndərməklə kifayətlənirik. (Bax: 1. Игорь Шафаревич. Социализм как явление мировой истории. Москва, "Эксмо», 2003. 2. Утопический социализм. Хрестоматия. Москва, Издательство политической литературы, 1982. 3. İbn Tufeylin və Nizami Gəncəvinin uyğun əsərləri)

## F. Platon və riyaziyyat

Platon Akademiyasının qapısı üzərində "həndəsəçi olmayan girə bilməz" ("həndəsədən başı çıxmayanlara giriş qadağandır") yazılmışdı. Əslində bu fikir Platonun akademiyaya başçılıq etməyə başladığı zamandan təqribən yeddi əsr yarım keçdikdən sonra ortaya atılmışdır (Diogenes Laertius); bunu tam təsdiqləmək olmur. O, ideal dövlət başçısının hesab, həndəsə və astronomiyanı öyrənməsini zəruri sayırdı ("Dövlət"). Platon Sokratesin dili ilə həndəsənin vacibliyindən söhbət açır, ona heç cür biganə qalmaq olmaz deyir (həyati nəticəsi çox böyük olmasa da); "gəlin astronomiyanı, həndəsədə olduğu kimi, məsələ həlli vasitəsilə öyrənək, göyləri isə öz başına rahat buraxaq".

Platon mücərrəd təfəkkürün, nəzəriyyənin vacibliyini  nümayiş etdirməklə təbiətşünaslığı riyaziləşdirmək proqramının həyata keçirilməsində böyük rol oynadı (ənənəyə görə Pifaqordan sonra). O, müşahidəni, sınaqları deyil, riyazi modelləri əsas araşdırma mövzusu sayırdı. Əsl astronomiya müşahidə ilə deyil (görünən və müşahidə olunanlar mükəmməl deyil), müşahidə olunanların arxasında dayanan gözəl və mükəmməl riyazi səmanın riyazi öyrənilməsi ilə məşğul olmalıdır. Paradoksal olan budur ki, Platon özü kainata poetik nəzərlə baxmışdır, onun kainata tətbiq etdiyi riyazi model əslində mif səviyyəsinə qalxır ("Dövlət", "Timaeus").

Platon riyaziyyatçılara ilham (və ideya?) verirdi. Beş düzgün çoxüzlülər və ya requlyar cisimlər Platonun şərəfinə Platon cisimləri adlandırılır.

Platon yaşlı vaxtında yazdığı və Pifaqorçu baxışlar üzərində qurulan məşhur "Timaeus"in sonuncu hissəsində- kosmoloji, fiziki, riyazi, bioloji hissədə kainatın əsasında duran dörd təməl elementlərlə düzgün çoxbucaqlılar arasında əlaqə yaratmağa çalışmışdır ("onun içində, başqa əsərləri ilə müqayisədə, əlbəttə ki, sadəcə daha çox səfeh şeylər var". B. Russell, səh. 148). Platona görə dörd təməl elementin hər biri özünəməxsus formaya malik hissəciklərdən təşkil olunub, biz o hissəcikləri çox kiçik olduqları üçün görmürük. Torpaq kublardan təşkil olunub; kub beş düzgün çoxüzlülər içində ən dayanıqlı olanıdır, ələ alanda yapışıb qalır, hər üzü kvadratdır və Yerdə asan oturur, rahat yan-yana düzmək/döşəmək mümkündür. Su, hava və od hərəkətlidirlər, müqayisədə alov ən hərəkətcil, hava orta hərəkətcil, su onlardan az hərəkətcildir. Od tetraedrlərdən, hava oktaedrlərdən, su ikosaedrlərdən təşkil olunub. Tetraedr-od ən itibucaqlı, itiuclu (deşir, yandırır), oktaedr-hava orta itiuclu, ikosaedr-su az itiucludur. Od hissəcikləri ən kiçik, havanın hissəcikləri orta böyüklükdə, su hissəcikləri ən böyükdürlər. Platon 5-ci düzgün çoxbucaqlını-dodekaedr`i Tanrı seçimi ilə şərəfləndirir, nümunə sayır, göyləri təşkil edən hissəciklərin mükəmməlliyə-

sferaya ən yaxın olan dodelkaedrlərdən ibarət olduğunu deyir. Platon burada, müəyyən mənada, öz atomçu nəzəriyyəsini irəli sürür, bu beş düzgün çoxüzlülərin səthlərinin bəlli sayda düzbucaqlı üçbucaqlardan təşkil olunduğunu xüsusi qeyd edir (məsələn, kubun səthi 24 düzbucaqlı üçbucaqdan ibarətdir); yəni, Platon`un atomları əslində düzbucaqlı üçbucaqlardır. Platon burada sanki riyaziləşmiş Homer və Hesioddur! Platon Kainatı və bioloji/fizioloji prosesləri Platon üçbucaqların bioloji/fizioloji xassələri ilə izah edir...Platon`un mifik xarakter daşıyan bu və buna bənzər fikirləri birqiymətli deyil və müxtəlif cür şərh olunur.

| **od** | **torpaq** | **hava** | **göy** | **su** |
|---|---|---|---|---|
| Tetrahedron (four faces) | Cube or hexahedron (six faces) | Octahedron (eight faces) | Dodecahedron (twelve faces) | Icosahedron (twenty faces) |

